# Suraxanı rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər




**"Biz 2016-cı ildə iqtisadi inkişaf templərini təmin etməliyik. Bu, asan məsələ deyil. Keçən il müşahidə olunan mənzərə deməyə əsas vermir ki, 2016-cı ildə dünyada iqtisadi böhran başa çatacaq. Belə olan halda biz daha da səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən struktur islahatları nəticəsində təmin etməliyik".**



Bu fikirləri Prezident İlham Əliyev yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası zamanı bildirib. Qeyd edib ki, hazırda xüsusilə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət daşıyır. Son illər ərzində bu istiqamətdə böyük işlər aparılıb və əgər zamanında bu siyasətin təməli qoyulmasaydı, bu gün ölkədəki iqtisadi inkişaf bu səviyyədə olmazdı: "Bu, müsbət haldır. Neftdən asılılıq azalır. Ancaq biz bu asılılığı minimum səviyyəyə endirməliyik ki, gələcəkdə neftin qiymətindən asılı olmayaq. Hesab edirəm ki, biz düşünülmüş siyasət, gərgin iş nəticəsində buna nail ola biləcəyik".

Görünən odur ki, iqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə əsas prioritet məsələ olacaq və artıq bu yöndə müxtəlif layihələr həyata keçirilib. Ölkənin bir sıra rayonlarında olduğu kimi, Suraxanı rayonunda da bu yöndə müxtəlif işlər görülür, tədbirlər həyata keçirilir. Sözügedən rayon neft rayonu kimi tanınsa da, müasir dövrün tələb və reallıqları orada da qeyri-neft sahəsinin inkişafını qaçılmaz edir. Bu istiqamətdə reallaşdırılan ən əhəmiyyətli layihələrdən biri isə rayonda "ATEF Şirkətlər Qrupu"nun iri qabaritli transformatorlar zavodunun istifadəyə verilməsi olub. Ölkə başçısı İlham Əliyevin də iştirakı ilə yanvarın 11-də bu zavodun açılışı baş tutdu. İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev və "ATEF Şirkətlər Qrupu"nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı yağ transformatorları zavodu, Qaraçuxur qəsəbəsində transformatorlar və elektrotexniki avadanlıqlar istehsal edən zavod, Hövsan qəsəbəsində isə metal konstruksiya zavodu barədə dövlət başçısına məlumat verdilər. Bildirildi ki, bunlardan başqa, şirkətin layihə-konstruktor bürosu, 3 tikinti-quraşdırma, həmçinin nəqliyyat və mexanikləşdirmə idarələri var. Şirkətin transformatorlar zavodu 2005-ci, metal konstruksiya zavodu isə 2011-ci ildən fəaliyyət göstərir.

Nəzərə çatdıraq ki, "ATEF Şirkətlər Qrupu" ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı Sərəncamla özəlləşdirilən Bakı mayesiz transformatorlar zavodunun bazasında yaradılıb. Ümummilli lider Heydər Əliyev 1982-ci və 1986-cü illərdə bu istehsal müəssisəsində olub, kollektivlə görüşüb. Hazırda şirkət tərəfindən Bakı-Tbilisi-Qars, Bakı-Böyük Kəsik dəmir yol xəttinin, eyni zamanda, Sabirabad, Qazax, Beyləqan rayonlarında məcburi köçkünlər üçün salınan qəsəbələrin elektrik təchizatını nəzərdə tutan yarımstansiyaların quraşdırılması üzrə işlərin icrası davam etdirilir. İri qabaritli transformatorlar zavodunun sınaq laboratoriyası müasir səviyyədədir. Buradakı qurğular 2,4 milyon voltadək yüksələ bilən impuls gərginliyi və 700 min voltadək dəyişən cərəyan verə bilir. Bu isə istehsal edilən transformatorların izolyasiyasını yoxlamağa imkan verir. Zavodda azərbaycanlı mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər. Ümumi sahəsi 15,6 hektar, istehsal sahəsi isə 14 min kvadratmetr olan zavod 3 korpus və 5 istehsal sahəsindən ibarətdir. Müəssisədə iri qabaritli güc transformatorları və reaktorların istehsalı nəzərdə tutulur. Burada həm də müxtəlif növ elektrotexniki avadanlıqlar, açıq və qapalı tipli yarımstansiyalar istehsal ediləcək. Cənubi Qafqazda analoqu olmayan, dünyanın aparıcı şirkətlərinin istehsal etdiyi avadanlıqla təchiz edilmiş zavodda yüksək keyfiyyətli məhsul hazırlamaq üçün bütün şərait var. Burada 300 nəfər işlə təmin edilib. Ərazisi 130 min kvadratmetr, istehsal gücü illik 8700 ədəd transformator, müxtəlif növ elektrotexniki avadanlıqlar və 20 min ton metal konstruksiya olan bu şirkətin digər zavodlarının maliyyələşdirilməsinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5 milyon manat güzəştli kredit verilib. Zavodlarda müxtəlif təyinatlı və gərginlikli yağ və güc transformatorları, açıq və qapalı tipli yarımstansiyalar, mühafizə və idarəetmə panelləri, elektrotexniki avadanlıqlar, radiatorlar, bloklar, şkaflar, ümumilikdə 200 çeşiddən artıq tam hazır məhsul və hissələr istehsal olunur. Bu məhsullar Kanada, Cənubi Afrika Respublikası, İraq, Bəhreyn, Bolqarıstan, Rusiya, Ukrayna, Moldova, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Gürcüstan və digər ölkələrə ixrac olunur. Üç il ərzində şirkətlər qrupunun zavodları 150 milyon dollarlıq məhsul ixrac edib. Yaxın illərdə isə ixracı 3 dəfə artırmaq üçün xarici ölkələrlə danışıqlar aparılır, müqavilələr imzalanır.

Onu da qeyd edək ki, görülən işlər bununla yekunlaşmır və qeyri-neft sektorunun inkişafı üçün başqa layihələr də həyata keçiriləcək. Bunlardan birinin işlərinə start verilib və sözügedən zavodun açılışı zamanı dövlət başçısı daha bir zavodun - yüksək gərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoyub. Onun isə ümumi sahəsi 20 min kvadratmetr olacaq. Müəssisədə müasir avadanlığın quraşdırılması nəzərə tutulur ki, bu da keyfiyyətli və rəqabətə davamlı məhsul əldə etməyə imkan verəcək. Yeni yaradılacaq müəssisənin istehsal gücü illik 3-4 min müxtəlif avadanlıq, o cümlədən daxili və xarici tip eleqaz açarlar, ayırıcılar, paylayıcı qurğular olacaq. Şirkətin zavodlarında orta aylıq əmək haqqı 500 manat olmaqla 2024 nəfər işlə təmin edilib. Yeni zavodun istifadəyə verilməsindən sonra bu rəqəmin 2500-ə çatdırılması nəzərdə tutulur.

Rayon ərazisində yeni iş yerlərinin açılması vətəndaşların sevincinə səbəb olmaya bilməzdi. Bu haqda fikirlərini bizimlə bölüşən **rayon sakini Gülnaz Quliyeva** bildirdi ki, həyat yoldaşı sözügedən zavodda işə başlayacaq və bu məqam onların ailəsi üçün ciddi əhəmiyyət daşıyır: "Bu, ailənin aylıq təminatı deməkdir və hər kəsin buna ehtiyacı var. İş yerləri olmasa, ailəyə pul gəlməsə, yaşayış çətinləşər. Biz bir müddət işsizliyin əziyyətini çəkmişik. Ona görə də yoldaşımın işlə təmin olunacağını eşidəndə çox sevindik".

Suraxanı rayonunun sosial-iqtisadi inkişafı haqda fikirlərini "Kaspi"yə açıqlayan rayonun **millət vəkili Fərəc Quliyev** bildirdi ki, bura neft sənayesinə bağlı rayondur. Son vaxtlar neftin qiymətinin birdən-birə aşağı düşməsi isə hamı kimi Suraxanı əhalisini də narahat edir: "Amma sevindirici məqam odur ki, son dövrlərdə rayonumuzda xeyli müəssisələr tikilib və müxtəlif iş yerləri açılıb. Əhalinin sosial rifahının yüksəldilməsi, yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün Suraxanı Rayon İcra Hakimiyyəti ilə birgə çalışır, bu işdə əlimizdən gələni əsirgəmirik. Ona görə də çətin ola biləcək 2016-cı ildə hər hansı tənəzzül yaşanacağını düşünmürəm. Çünki ortaya səmərəli fəaliyyət qoyuruq. Həm icra başçısı, həm aparat, həm də digər qurumlarla birgə çatışmazlıq və ya problem olan yerlərə gedir, onu aradan qaldırmaq istiqamətində işlər görürük. Əhalinin təminatının yaxşılaşdırılması üçün qeyri-neft sektorunun inkişafı məsələsində isə Prezident İlham Əliyevi tam olaraq dəstəkləyirik".

Millət vəkilinin fikrincə, qeyri-neft sektorunun inkişafı təkcə Suraxanı rayonu üçün yox, ümumilikdə ölkə üçün mühüm yanaşmadır. Çünki əksər sahələr neft ixracatına bağlıdır. Dünyada müşahidə olunan böhran isə bunun qarşısını almağı zəruri edir. Həmsöhbətimiz hesab edir ki, dövlət büdcəsi neft yoxmuş kimi təşkil olunmalıdır və neftdən gələn gəlirləri başqa istiqamətlərə yönəltmək üçün ehtiyat saxlamaq lazımdır: "Mən gələcəkdə Qarabağın hərbi yolla azad oluna biləcəyi ehtimalını nəzərdə tuturam. Və ya torpaqlarımız dinc yolla geri qaytarılarsa, həmin ərazilərin bərpası üçün bizə külli miqdarda vəsait lazım ola bilər. Qeyri-neft sektorunun inkişafının ən mühüm tərəflərindən biri də odur ki, ölkədə idxal asılılığı aradan qalxar. Bəzən ölkəyə elə məhsullar gətirilir ki, o ya bizdə istehsal olunur, ya da istehsal oluna bilər. Yəni pulları xaricə çıxarmamaq da mümkündür. Ən mühüm məsələlərdən biri də odur ki, biz "ixracat hücumu" təşkil etməliyik. Öz təminatımızı təşkil etməklə yanaşı, daha çox bazarlara çıxmağı bacarmalıyıq. Bunun üçün bizim bütün imkanlarımız var. Hazırda dünyada neftin düşməsi fonunda büdcə gəlirlərini qeyri-neft sektoru hesabına doldurmaq lazımdır. Sevindirici haldır ki, Suraxanı rayonunda transformator zavodunun açılışı oldu, digər bir zavodun isə təməli qoyuldu. Bu, xeyli sayda iş yerlərinin açılması deməkdir. Bunun isə birbaşa əhalinin yaşayışına təsir etdiyi məlum məsələdir".

**Suraxanı Rayon İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Altun Quliyev** də rayon ərazisində bu cür zavodun istifadəyə verilməsinin sevinclə qarşılandığını bildirdi. Qeyd etdi ki, zavodun işçilərinin orta aylıq əmək haqqı 500 manat olacaq və həmin ailələrin büdcəsinə əlavə olaraq 500 manatın daxil olması ümumilikdə yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olacaq. Bu həm də o deməkdir ki, ölkədə işsizlik səviyyəsi də azalacaq. Zavodun açılışının digər mühüm tərəfi həmin ərazilərin abadlaşdırılması, orada xeyli ağacın əkilməsi ilə bağlıdır. Bu isə orada ekologiyanın da təmiz olacağına dəlalət edir: "Əvvəllər oralar mədən ərazisi idi. Buna görə də çox baxımsız və çirkli idi. Zavodun inşasının planlaşdırılması ilə onun ətraf ərazilərində təmizlik-quruculuq işləri aparıldı. Böyük bir ərazi abadlaşdırıldı və orada ağaclar əkildi, yollara asfalt örtüyü çəkildi. Ümumiyyətlə, bu cür iş yerlərinin açılışı çox təqdirəlayiq haldır. Bu o deməkdir ki, həmin ərazidə inkişaf və tərəqqi var. Yəni həm yeni obyekt açılır, həm onun ətrafı abadlaşdırılır, həm də insanlar işlə təmin olunur. Bildirim ki, orada avtobus dayanacaqları da quraşdırılıb və yollar bərpa olunub ki, insanların gediş-gəlişi rahat olsun. Həmçinin həmin ərazidə yerləşən müxtəlif obyektlər, hasarlar, çənlər və s. rənglənib. Harada lazımdırsa, hörgü işi aparılıb. Rayon İcra Hakimiyyəti olaraq, bu işlərə töhfə verdiyimiz üçün şadıq. Biz bu açılışa ciddi hazırlaşmışdıq. Həm bizim, həm də rayonun digər idarə və müəssisələrinin işçiləri açılışa hazırlıq dönəmində müəyyən işlər görüb, iməciliklər təşkil edirdilər. Təbii ki, həyata keçirilən belə işlər hər bir sakin üçün faydalıdır. Hətta bunun nəticəsi tək rayon deyil, ölkəmiz üçün əhəmiyyətlidir".




**Şəfa Tapdıq**

***Yazı Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə keçirdiyi müsabiqəyə təqdim edilir***